

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 oktyabr 2025-ci il, çərşənbə axşamı
№ 190 (7017)
Qiyməti 60 qəpik


# Qazaxıstanda İlham Əliyevə böyük ehtiram!




## Kasım-Jomart Tokayev Azərbaycan Liderini Astana hava limanında qarşılayıb

Bax səh. 2

## Qazaxıstan - Azərbaycan əlaqələri bölgə üçün mühüm perspektivlər yaradır

Bax səh. 2



Bax səh. 3

## Humanitar diplomatiyanın yeni səhifəsi



Bax səh. 4

## Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib

## "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" yeni mərhələyə daxil olur

Bax səh. 5

## Azərbaycan Asiya Parlament Assambleyasına uğurla sədrlik edir

Bax səh. 5

## BMT-də Azərbaycan gündəliyi

Bax səh. 6

## ŞKTC-nin 6-cı prezidenti seçilib

Bax səh. 7





# Prezident İlham Əliyev Qazaxıstanda dövlət səfərindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfərinə gəlib. Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısını Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib.**

# Qazaxıstan - Azərbaycan əlaqələri bölgə üçün mühüm perspektivlər yaradır

## İki ölkə arasında siyasi əlaqələr qarşılıqlı etimada söykənir

Azərbaycan dövlətinin yürütdüyü siyasət beynəlxalq aləmdə dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı etimad mühitinin qorunması və ortaq maraqlara əsaslanan əməkdaşlığın inkişafı kimi mühüm prioritetləri əhatə edir. Xüsusilə, qonşu ölkələr, türk dünyası ilə əlaqələr bu kontekstdə seçilir - bu münasibətlər təkcə mədəni-tarixi yaxınlıq müstəvisində deyil, həm də iqtisadi, nəqliyyat-logistika, enerji və təhlükəsizlik istiqamətlərində strateji əməkdaşlıq səviyyəsinə yüksəldib.

Bu mənada Azərbaycanın Qazaxıstanla münasibətləri xüsusi yer tutur. Hər iki ölkə eyni tarixi-mədəni köklərə, ortaq dilə, dinə və milli dəyərlərə malik olmaqla yanaşı, regionda sabitliyin və iqtisadi tərəqqinin mühüm dayaqlarıdır. Azərbaycan və Qazaxıstan arasında formalaşan strateji tərəfdaşlıq modeli türk dünyasının birliyinə, həmrəylik ruhuna və Orta Asiya-Cənubi Qafqaz xəttində yeni əməkdaşlıq formatlarının yaranmasına mühüm töhfələr verir.

Son illərdə dövlət başçılarının qarşılıqlı səfərləri, imzalanan sazişlər, iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsi, eləcə də Transxəzər nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq bu münasibətləri daha da möhkəmləndirib. Azərbaycan və Qazaxıstan yalnız regional deyil, həm də qlobal səviyyədə bir-birinin mövqelərini dəstəkləyir, beynəlxalq platformalarda ortaq maraqları müdafiə edirlər. Qeyd edək ki, Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibəsində bildirib ki, Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur: “Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq. Sözsüz ki, ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur”.

## Dostluq, qardaşlıq əlaqələri...

Hələ qədim dövrlərdən yaxın münasibətlərə malik xalqlar arasında yaxın dostluq münasibətləri mövcud olub. Ötən yüzillikdə isə hər iki ölkə SSRİ çərçivəsində 70 ildən artıq müttəfiq respublika kimi fəaliyyət göstəriblər. Müstəqillik əldə edildən sonra isə bu əlaqələr daha da güclənib. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında diplomatik münasibətlər 30 avqust 1992-ci ildə qurulub. 1993-cü ildə Qazaxıstanın Azərbaycanda, 2004-cü ildə isə Azərbaycanın Qazaxıstanda səfirliyi, həmçinin 2008-ci ildən Aktau şəhərində Baş konsulluğu fəaliyyətə başlayıb.

Bu gün yeni məzmun kəsb edən Azərbaycan-Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq və müttəfiqlik xarakterlidir. İki ölkə arasında iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar istiqamətləri üzrə ikitərəfli tərəfdaşlıqla yanaşı, regional və beynəlxalq platformalarda, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlıq böyük potensial və geniş perspektivlərə malikdir. Qazax xalqının Azərbaycana hədiyyəsi olan Füzuli şəhərinin işğaldan azad edilmiş ərazilərində inşa edilmiş və istifadəyə verilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi xalqlarımız arasında dostluq və qardaşlığın daha bir rəmzi kimi qiymətləndirilir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki “Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə görə qardaş Qazaxıstana bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu Mərkəz mühüm mədəni-maarif müəssisəsinə çevrilib, hazırda orada 100-ə yaxın uşaq təhsil alır”.

## Qarşılıqlı səfərlər əlaqələri möhkəmləndirir

Dövlət başçıları arasındakı səmimi dostluq və qarşılıqlı hörmət isə bu əməkdaşlığı daha da irəliyə daşıyır - qeyd edək ki, son 5 ildə iki ölkənin dövlət başçısının qarşılıqlı səfərləri əlaqələrin möhkəmlənməsinə yeni bir mərhələ qazandırıb. Azərbaycan Prezidenti İlham Əliyev dost ölkəyə 2022-ci ilin oktyabrında işgüzar, 2023-cü ilin aprelində isə rəsmi səfər edib. bundan başqa, 2023-cü ilin noyabrında TDT-nin 10-cu Yubiley Zirvə görüşündə, 2024-cü ilin iyulunda isə Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində, 2024-cü ildə avqustunda isə Mərkəzi Asiya Dövlət Başçılarının Altıncı Məşvərət Görüşündə iştirak etmək məqsədilə iştirak etmək məqsədilə Qazaxıstan Respublikasına işgüzar səfər edilib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev 2022-ci ilin avqustunda Azərbaycana rəsmi səfər, 2024-cü ilin martında isə dövlət səfəri reallaşıb. Bundan başqa Qazaxıstan Prezidenti 2023-cü ilin noyabrında BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı-SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə Görüşündə, 2024-cü ilin iyulunda Şuşa şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək məqsədilə Azərbaycan Respublikasına işgüzar səfər edib. Prezidenti Kasım-Jomart Tokayev 2024-cü ilin noyabrında da Azərbaycan Respublikasına işgüzar səfər edib. “Kazinform”a eksklüziv müsahibəsində Prezident İlham Əliyev deyib ki, bu, son üç ildə mənim qardaş ölkəyə yeddinci səfərimdir: “Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir”.



## TDT iki ölkənin münasibətlərində yeni bir mərhələ açıb

Qeyd edək ki, Azərbaycan-Qazaxıstan ikitərəfli format ilə yanaşı, regional və beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir və bir-birinin milli maraqları ilə bağlı məsələlərə həssaslıqla yanaşaraq, qarşılıqlı dəstək nümayiş etdirirlər. Bu sırada Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avratlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, TDT, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKPA, TÜRKSOY kimi beynəlxalq qurumları qeyd edə bilərik. Amma iki dövlət arasında çoxtərəfli əlqələrdən danışdıqda Türk Dövlətləri Təşkilatına xüsusi yer ayırmaq gərəkir. Belə ki, qurum iki dövlətin yaxın əməkdaşlıq əlaqələrini daha da gücləndirib. Məhz TDT şərçivəsində imzalanan “Qarabağ Bəyannaməsi” Bakı-Astana əlqələrində yeni bir mərhələnin əsasını qoyub. Dövlət başçısı müsahibəsində bu məqama toxunaraq deyib ki, Türk Dövlətləri Təşkilatı Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır. “2009-cu ildə qədim Azərbaycan torpağı Naxçıvanda yaradılan Türk Dövlətləri Təşkilatı türk xalqları və ölkələri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə mühüm töhfələr verib. Keçən il Şuşada ilk qeyri-rəsmi Zirvə Görüşü, bu yaxınlarda isə Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Bu yüksəksəviyyəli görüşlərdə ölkələrimiz arasında təşkilat çərçivəsində əməkdaşlığın əsas məsələləri səmərəli şəkildə müzakirə edilib, Türk Dövlətləri Təşkilatının möhkəmlənməsinə, Türk dünyasının daha sıx birliyinə, onun siyasi, iqtisadi və hərbi gücünün artırılmasına, qlobal arenada güc mərkəzinə çevrilməsinə töhfə verən bəyannamələr imzalanıb. TDT çərçivəsində ölkələrimiz arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlıq sistemli və ardıcıl xarakter daşıyır. Birgə təşəbbüslər festivalların, sərgilərin, ədəbi gecələrin və konfransların təşkilindən tutmuş elm və təhsil müəssisələri arasında fəal əməkdaşlığa qədər geniş istiqamətləri əhatə edir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.





## Möhkəm hüquq-müqavilə bazası...

İndiyədək Azərbaycanla Qazaxıstan arasında çoxsaylı sənədlər imzalanıb. İki ölkə arasında yaxın dostluq münasibətləri 1 mart 2004-cü ildə Astanada imzalanmış “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə” və 24 may 2005-ci ildə Bakıda imzalanmış “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə” ilə möhkəmləndirilib. İki dost ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iqtisadi əməkdaşlıq da uğurla inkişaf edir. Yeri gəlmişkən, Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibəsində bildirib ki, biz ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işləyib hazırlamışıq, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaratmışıq: “Bu il 20 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib”.

***Pərviz SADAYOĞLU***

# Humanitar diplomatiyanın yeni səhifəsi

## Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vatikana rəsmi səfəri və bu səfər çərçivəsində keçirdiyi görüşlər respublikamızın mənşəyindən asılı olmayaraq müqəddəs və tarixi dəyərlərə hörmətlə yanaşan ölkə kimi mövqeyini daha da gücləndirib











Hazırda dünyada multikulturalizmlə bağlı vəziyyət heç də ürəkaçan deyil. Ayrı-ayrı regionlarda insanların milli-dini-irqi ayrı-seçkiliyə məruz qalma hallarının artması müşahidə edilir ki, bu da dərin təəssüf doğurur.

Belə kədərli mənzərə fonunda Azərbaycan beynəlxalq birliyə özünün unikal nümunəsini təqdim edir. Hazırda respublikamız dünyada multikulturalizmi təşviq edən, çoxmədəniyyətliliyi özünün üstünlüyü kimi dəyərləndirən azsaylı ölkələr sırasında yer alır. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, multikulturalizm Azərbaycanın tarixdən gələn ənənəsidir, eyni zamanda, bu, dövlət siyasətidir.

Əlamətdar haldır ki, Azərbaycanın bu sahədə ardıcıllıqla həyata keçirdiyi dövlət siyasətinə cəmiyyətdən də güclü dəstək gəlir. Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun respublika daxilində və ölkə hüdudlarından kənarda davamlı olaraq həyata keçirdiyi çoxsaylı layihələr bunun əyani təsdiqidir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva bu sahədə təqdirəlayiq missiya yerinə yetirir. Onun bu günlərdə Vatikana uğurlu səfəri Azərbaycanın humanitar diplomatiyasının növbəti parlaq nümunəsidir.

**Heydər Əliyev Fondunun dünya ölkələrini əhatə edən humanitar fəaliyyəti**

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti, həyata keçirdiyi humanitar layihələr Vatikanda da müsbət qiymətləndirilir. Bu da təsadüfi deyil. Fond genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Azərbaycanın müxtəlif guşələrində məscidlər, kilsələr, sinaqoqlar dövlət tərəfindən təmir - bərpa edilir, yenidən qurulur. Bu prosesdə Heydər Əliyev Fondunun fəal rol oynaması isə xüsusi qeyd edilməlidir. Fondun tolerantlıq prinsipinə və multikultural dəyərlərə əsaslanan bu cür tədbirləri - sistemli fəaliyyəti respublikamızın inzibati-coğrafi sərhədləri ilə məhdudlaşmır, bir çox ölkələri əhatə edir. İtaliya, Bolqarıstan və başqa bir sıra ölkələrdə dini-mədəni abidələrin bərpası ilə bağlı görülən işlər də bu reallığı təsdiqləyir. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi Heydər Əliyev Fondunun bəşəri missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir.

Fond tərəfindən Vatikanda bir sıra layihələrin həyata keçirilməsi də ayrıca qeyd edilməlidir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsinin Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilməsi mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işlərinin aparılması da yüksək dəyərləndirilir. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi də olduqca önəmlidir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb. O, bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də Fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Fondun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan hissəsini uçmaq təhlükəsindən qoruyub. Vatikana bu dəfəki səfər çərçivəsində oktyabrın 16-da Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. Paskuale Yakobone Kommodilla katakombalarının açılışında iştirakına görə Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib.

Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu vurğulayan Komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğulayıb.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olub. Müqəddəs Pavel Bazilikası Müqəddəs Pyotr Bazilikasından sonra Vatikanın ikinci ən böyük kilsəsidir və 1980-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Xatırladaq ki, 2024-cü il sentyabrın 11-də 25 ildən bir təşkil olunan və Müqəddəs Taxt-Tac tərəfindən qeyd edilən "Yubiley İli" çərçivəsində Vatikan Şəhər Dövlətinin Qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin təhlükəsizliyinin təmin olunmasını və təmirini nəzərdə tutan sənəd imzalanıb. Sənədi Qubernatorluğun sabiq prezidenti kardinal Fernando Vergez Alzaqa və Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov imzalayıblar.

Ümumiyyətlə, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət, o cümlədən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə reallaşdırılan layihələr Müqəddəs Taxt-Tac ilə münasibətlərin inkişafına xidmət etməklə, dövlətimizin imicini möhkəmləndirməklə yanaşı, ölkəmizə beynəlxalq miqyasda mənəvi-siyasi dəstəyi gücləndirir. Bu isə kritik - taleyüklü anlarda və məqamlarda strateji amilə çevrilir. Konkret bir məqama nəzər salaq: məlumdur ki, Ermənistanla yanaşı, bəzi geosiyasi mərkəzlər İkinci Qarabağ müharibəsinə dini don geyindirməyə, məsələni "sivilizasiyalararası savaş" kimi təqdim etməyə çalışırdılar. Məqsəd din amilindən istifadə edərək xristian dünyasından Azərbaycana qarşı təzyiq mexanizmi formalaşdırmaq idi. Hətta onlar Roma Papası tərəfindən Azərbaycan əleyhinə bəyanat səsləndirilməsinə cəhd göstərsələr də, buna nail olmadılar. Bu fakt yuxarıda bəhs olunan sistemli, məqsədyönlü işlərin tarixi və strateji əhəmiyyətini, uğurlu nəticələrini əks etdirir.

**"Yumşaq gücün ustad dərsi"**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın taxt-Taca rəsmi səfəri və bu səfər çərçivəsində baş tutan tədbirlər çox doğru olaraq mədəniyyətlərarası anlaşmanın və humanitar əməkdaşlığın parlaq simvolu kimi dəyərləndirlir. İtaliyanın Avropa Xəbər Agentliyinin nümayəndəsi Karlo Marino vurğulayıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri təkcə mərasim xarakteri daşımayıb, həm də dərin humanitar-siyasi məzmun kəsb edib: "Azərbaycanın Birinci vitse-prezidenti rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacda Roma Papası XIV Leo ilə görüşüb. Həmçinin Vatikanın yüksəkvəzifəli nümayəndələri ilə danışıqlar aparılıb, humanitar böhranlar, münaqişə zonalarında mədəni irsin qorunması, dinlər və mədəniyyətlər arasında dialoqun əhəmiyyəti kimi aktual məsələlər müzakirə olunub. Səfərin əsas diqqət mərkəzində Azərbaycanın ardıcıl şəkildə həyata keçirdiyi "humanitar diplomatiya" konsepsiyası dayanır. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Vatikanın Müqəddəs Kommodilla katakombaları da daxil olmaqla, tarixi və dini abidələrin bərpası üzrə layihələr həyata keçirir".

Karlo Marino vurğulayıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri "yumşaq gücün ustad dərsi" olub və Azərbaycanın yalnız enerji tərəfdaşı kimi deyil, həm də qlobal humanitar prosesin məsul iştirakçısı kimi çıxış etmək əzmini nümayiş etdirib. "Bu səfər dərin rəmzi məna daşıyır. Əhalisinin çoxu müsəlman olan, lakin dünyəvi dövlət quruluşuna malik bir ölkə üçün katolik dünyasının mərkəzində ali səviyyəli görüş Azərbaycanın çoxəsrlik dözümlülük və multikulturalizm ənənəsini bir daha ön plana çıxardı. Dialoqun əsas mövzularından biri bəşəriyyətin mədəni irsinin qorunması üzrə qarşılıqlı səylər idi. Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Vatikanda incəsənət, tarix və mədəniyyəti insan ruhu və yaddaşının daşıyıcısı kimi qorumağa yönəlmiş fəaliyyətlə səsləşir. Dini və mədəni abidələrin - istər Vatikanın katolik irsi, istərsə də Azərbaycanda bərpa edilmiş islam və xristian məbədlərinin bərpası milli qürur aktı kimi deyil, dünya irsinə qarşı ümumbəşəri məsuliyyətin təzahürü kimi təqdim olunub. Bu ortaq dəyər Azərbaycana sivilizasiyanın qoruyucusu, mənşəyindən asılı olmayaraq müqəddəs və tarixi dəyərlərə hörmətlə yanaşan ölkə kimi mövqe qazandırır. Mədəni irsin getdikcə daha çox dağıntılara məruz qaldığı bir dövrdə bu mövqe böyük mənəvi nüfuza malikdir", - deyə o qeyd edib.

Avropa Xəbər Agentliyinin nümayəndəsi əmindir ki, bu səfər diqqətlə planlaşdırılmış bir addım idi və Azərbaycanın zəngin dözümlülük irsini daxili siyasət elementindən beynəlxalq kimliyin ayrılmaz hissəsinə çevirdi. "Qlobal məkanda, obrazların və simvolların bəzən sözlərdən daha çox mənaya malik olduğu bir şəraitdə Azərbaycanın Birinci vitse-prezidenti Roma Papası ilə dərinməzmunlu dialoq apararaq güclü bir mesaj göndərdi - Qafqazın bu müsəlman ölkəsi körpülər salmağa, yaraları sağaltmağa və birgəyaşayış ideyasını irəlilətməyə çalışır. Beynəlxalq münasibətlərin böyük kətanında bu səfər yeni bir ip - dialoq, hörmət və daha harmonik dünya üçün ümumi ümid ipini əlavə etdi. Beləliklə, Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfəri Azərbaycanın humanitar diplomatiyasının inkişafında mühüm bir səhifəyə çevrildi və ölkənin beynəlxalq imicini mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında körpü kimi daha da möhkəmləndirdi", - deyə Karlo Marino vurğulayıb.

**Mehriban Əliyevanın Vatikana səfəri dünya mediasının diqqət mərkəzində**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfəri və keçirdiyi görüşlər Vatikan və dünya mediasında diqqətlə izlənilir. Müqəddəs Taxt-Tacın və İtaliyanın aparıcı mətbu orqanları Mehriban Əliyevanın Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşünə geniş yer ayırıb. "Vatican News" portalının, Vatikanın yeganə rəsmi mətbuat orqanı olan "L "Osservatore Romano" qəzetinin, "ACI Stampa" və "Agenzia S.I.R" katolik xəbər agentliklərinin, eləcə də İtaliyanın katolik icmasına məxsus "Faro di Roma" qəzetinin yaydığı materiallarda Müqəddəs Taxt-Tacla Azərbaycanın ikitərəfli əlaqələrinin son illərdə xeyli inkişaf etdiyi vurğulanıb. İtaliyanın "Askanews" və "Italpress" xəbər agentlikləri, eləcə də "Agenparl" və "Notizie Tiscali" portallarının yaydığı materiallarda Birinci vitse-prezident Mehriban Əliyevanın səfərinin gərgin gündəmdə və çoxsaylı yüksəksəviyyəli görüşlərdə öz əksini tapdığı, Azərbaycan ilə Vatikan arasında mükəmməl ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi və getdikcə fəallaşan mədəni, elmi və diplomatik əməkdaşlıq çərçivəsində baş tutduğu bildirilir.

"Euronews" telekanalının saytında "Azərbaycan Vatikanda aparılan bərpa işləri ilə Müqəddəs Taxt-Tacla əlaqələri gücləndirir" sərlövhəli məqalə dərc olunub.

Yazıda ölkəmizin Vatikanda tarixi katakombaların bərpasına və paralel olaraq Azərbaycanda yeni Katolik Kilsəsinin tikintisinə dəstək verməklə Müqəddəs Taxt-Tac və katolik dünyası ilə əlaqələrini gücləndirdiyi vurğulanır.

"Artan bu əməkdaşlığın növbəti əlaməti olaraq Bakıda II İoann Pavelin şərəfinə ikinci Katolik Kilsəsi inşa olunacaq. Katolik Kilsəsinin yerləşəcəyi ərazi Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi, arxiyepiskop Paul Riçard Qallager tərəfindən 2024-cü ilin dekabrında təsdiq edilib. Layihə Azərbaycanda artan katolik icmasını və dinlərarası dialoqun davamlı inkişafını əks etdirir", - deyə məqalədə qeyd olunur.

Argentinanın "Real Politik" xəbər agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşünə geniş yer ayırıb. Məqalədə qeyd olunub ki, Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycanın Birinci vitse-prezidenti son illərdə Vatikan ilə Azərbaycan arasında münasibətlərin möhkəmləndiyini vurğulayıb.

Argentinanın "Radio Maria" xəbər və onlayn radio portalı da Mehriban Əliyeva və Papa XIV Leonun görüşünü diqqətdə saxlayıb. İtaliyanın "Eurasiaticanews" portalının materialında isə Azərbaycanın Birinci vitse-prezidentinin oktyabrın 16-da Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak etdiyi və həyata keçirilmiş bərpa işləri ilə tanış olduğu bildirilib. Vurğulanır ki, Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq və mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi nümunəsi kimi yüksək qiymətləndirilir.

*Mübariz ABDULLAYEV*

# Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib











Oktyabrın 20-də Dövlət Statistika Komitəsində Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Komitənin əməkdaşları əvvəlcə Fəxri xiyabana gələrək müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin Komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli Qətnaməsinə uyğun olaraq beş ildən bir keçirilən Ümumdünya Statistika Günü ölkəmizdə də təntənəli şəkildə qeyd edilir: "BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında BMT Baş katibinin Ümumdünya Statistika Günü ilə bağlı təqdim olunmuş məruzəsinə əsasən bu əlamətdar gün cari ildə beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilir. Bu günün təsis edilməsində əsas məqsəd cəmiyyətin bütün üzvlərinin, xüsusilə beynəlxalq təşkilatların, elmi dairələrin, medianın, rəsmi statistikanın bütün istehsalçı və istifadəçilərinin diqqətinin müasir dövrün problemlərinin həlli üçün adekvat informasiya təminatında mühüm rol oynayan statistikaya yönəldilməsidir".

Komitə sədri vurğulayıb ki, qlobal mütərəqqi təşəbbüslərə böyük önəm və töhfə verən Azərbaycanda Ümumdünya Statistika Günü ilk dəfə 2015-ci ildə təntənəli şəkildə qeyd olunmuşdur: "Lakin 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzündən sonra başlayan İkinci Qarabağ müharibəsi ilə əlaqədar Ümumdünya Statistika Gününün ölkəmizdə qeyd edilməsi mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz hesab edilmiş və bununla bağlı Dövlət Statistika Komitəsi tərəfindən beynəlxalq təşkilatlara və dünya ölkələrinin statistika qurumlarına müraciət ünvanlanmışdır".

Tahir Budaqov qeyd edib ki, bu il — Vətən Müharibəsindəki möhtəşəm Zəfərimizin 5 illiyində Ümumdünya Statistika Gününün ölkəmizdə də yüksək səviyyədə, təntənəli şəkildə qeyd olunması məqsədilə Dövlət Statistika Komitəsi kollegiyasının 2025-ci il 27 avqust tarixli, 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumdünya statistika gününün qeyd edilməsinə dair Tədbirlər planı"na uyğun olaraq, 24-26 sentyabr tarixlərində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu keçirilmişdir. Onun sözlərinə görə, Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, tanınmış elmi ictimaiyyət xadimlərinin və ekspertlərin qatıldıqları Forum milli statistika sistemlərinin inkişafı, rəsmi statistika sahəsində yeni hədəflərin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət daşımış, eləcə də qlobal statistik təşəbbüslərin, beynəlxalq və qabaqcıl təcrübələrin bölüşülməsində səmərəli platforma kimi beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə öz töhfəsini vermişdir: "Fürsətdən istifadə edərək Forum iştirakçılarına ünvanlandığı müraciətə, Ümumdünya Statistika Günü münasibətilə təbrikinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bir daha ölkə statistikləri adından təşəkkürümü bildirirəm. Qeyd etmək istərdim ki, ölkə başçısının müraciətində statistikanın əhəmiyyətinin ildən-ilə artaraq cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrildiyini vurğulaması, Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı barədə dəyərli fikirlər bildirməsi statistikləri ruhlandırmaqla yanaşı, ölkəmizin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistika məlumatlarının vaxtında və keyfiyyətlə hazırlanması ilə bağlı məsuliyyətimizi daha da artırır".



Komitə sədri qeyd edib ki, Tədbirlər planına uyğun olaraq yerli statistika orqanlarında da Ümumdünya Statistika Gününün qeyd edilməsi ilə bağlı tədbirlər görülmüş, bu günlə əlaqədar Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılmış, statistik maarifləndirmə məqsədilə materiallar hazırlanaraq mediada çıxışlar edilmiş, "Statistika xəbərləri" elmi-praktik jurnalının Ümumdünya Statistika Gününə həsr olunmuş xüsusi buraxılışı hazırlanmışdır: "Xüsusi buraxılışda BMT-nin Statistika Şöbəsinin direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, Bolqarıstan, Koreya Respublikası, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkiyənin statistika qurumlarının rəhbərləri tərəfindən Azərbaycan statistiklərinə Ümumdünya Statistika Günü ilə bağlı ünvanlanmış təbriklər, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bankın sədrlərinin, Qazaxıstan, Gürcüstan, Serbiya, Macarıstan, Belarus və Türkiyə milli statistika qurumlarının rəhbərlərinin və yüksək vəzifəli əməkdaşlarının, eləcə də ölkənin tanınmış elm adamlarının statistikanın aktual məsələlərinə həsr olunmuş məqalələri əksini tapmışdır. Gənclər arasında statistikaya marağın artırılması, onlar arasından statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiada isə xüsusi əhəmiyyəti ilə seçilən tədbirdir".

Tahir Budaqov bildirib ki, rəsmi statistikaya olan inam və etibarın qorunub saxlanılması, rəsmi statistikanın əsas prinsiplərinə sadiq qalaraq və "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarını rəhbər tutaraq bəşəriyyətin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistik məlumatların vaxtında və keyfiyyətlə hazırlanaraq istifadəçilərə təqdim edilməsi bu gün statistiklərin qarşısında duran ən mühüm vəzifədir: "Müsbət haldır ki, ölkələrin sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi üçün informasiya təminatında xüsusi rola malik olan milli statistika sistemləri təşəkkül tapdığı dövrdən etibarən beynəlxalq səviyyədə müəyyən edilmiş fundamental dəyərləri qoruyub saxlamış və böyük inkişaf yolu keçərək daim yeni perspektiv hədəflərə doğru irəliləmişdir. Milli və qlobal çağırışlara layiqincə cavab verməyi özünün əsas hədəfi hesab etməklə qlobal statistika ailəsinin bir üzvü kimi Azərbaycanın milli statistika sistemi də son illər ərzində daim tərəqqiyə can atmış, ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilmişdir".

Azərbaycanda milli statistika sisteminin inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən Komitə sədri əlavə edib ki, ölkədə onun rəhbərliyi ilə yaradılmış hüquqi baza əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına güclü təkan vermiş, bu sahədə ardıcıl qəbul olunmuş 6 dövlət proqramı uğurla icra edilmişdir: "Bu proqramlar çərçivəsində köklü islahatlar həyata keçirilmiş, o cümlədən milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və s. istiqamətlərdə mühüm tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər həyata keçirilən islahatları yüksək qiymətləndirərək Azərbaycanın milli statistika sisteminin beynəlxalq standartlara uyğun olduğunu qeyd etmiş, Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit təşkilatları tərəfindən ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. Dövlət Statistika Komitəsi Azərbaycanda bu uyğunluq sertifikatına layiq görülən ilk mərkəzi icra hakimiyyəti orqanı olmaqla yanaşı, MDB məkanında da bu sertifikatı əldə edən ilk statistika qurumudur. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə qiymətləndirilməsinin nəticələrinə görə Dövlət Statistika Komitəsi son illərdə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmışdır".

Komitə sədrinin sözlərinə görə, son illərdə baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün etibarlı statistikanın təşkili zərurəti bu gün statistiklərin qarşısında yeni və həlli vacib daha mürəkkəb vəzifələr qoyur, informasiya texnologiyalarının sürətli inkişafı, alternativ, qeyri-ənənəvi məlumat mənbələrinin yaranması isə statistik proseslərin fasiləsiz modernizasiyasını, güclü potensiala malik kadrların formalaşdırılmasını tələb edir: "Bununla əlaqədar hesab edirik ki, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının daha da gücləndirilməsini, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsini şərtləndirir. Bu məqsədlə də Dövlət Statistika Komitəsi tərəfindən 2026-2030-cu illərdə rəsmi statistikanın inkişafına dair növbəti hədəflər artıq müəyyən edilmişdir. Yeni hədəflərin icrası demoqrafiya və əhali sakinliyi, milli hesablar, kənd təsərrüfatı, sənaye, nəqliyyat və turizm, işçi qüvvəsi, ev təsərrüfatları büdcələri, əhalinin fasiləsiz təhsildə iştirakı, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğu ilə bağlı aktual statistik məlumatların əldə olunmasına, eləcə də statistikanın yeni sahələri kimi formalaşmaqda olan yaşıl inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalarla bağlı yeni göstəricilər üzrə statistik istehsalın təşkilinə, inzibati məlumat mənbələrindən istifadəni genişləndirməklə respondentlərin üzərinə düşən statistik yükün azaldılmasına, beynəlxalq səviyyədə makroiqtisadi müqayisələr üçün ən mühüm beynəlxalq statistika standartı kimi qəbul olunan Milli Hesablar Sisteminin yenilənmiş 2025-ci il versiyasının tətbiqi ilə beynəlxalq müqayisəliliyi təmin etməklə informasiya təminatının yüksəldilməsinə, eləcə də statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsinə, milli statistika sisteminin fəaliyyətini qiymətləndirməklə növbəti strateji inkişaf prioritetlərinin müəyyən olunmasına, ümumilikdə rəsmi statistikanın dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir".

Tahir Budaqov çıxışının sonunda fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq rəsmi statistika istehsalı prosesinə öz töhfəsini verən hər bir şəxsi bu əlamətdar gün münasibətilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Təbirdə çıxış edən Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev Ümumdünya Statistika Günü ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən gənclər arasında statistikaya marağın artırılması, onlar arasından statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiadanın xüsusi əhəmiyyətindən bəhs edərək belə tədbirlərin gənclər üçün statistika elmi, habelə ölkənin sosial-iqtisadi həyatında baş verən hadisə və proseslər haqqında daha geniş rəsmi statistik məlumatları əldə etmək imkanları yaratdığını bildirib.

Statistik olimpiadanın yekunlarına dair hesabat məruzəsi ilə çıxış edən Dövlət Statistika Komitəsi sədrinin müavini, təşkilat komitəsinin sədri Yusif Yusifov qeyd edib ki, olimpiadada ümumilikdə 3355 nəfər şagird, 198 nəfər tələbə iştirak etmişdir: "Şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələrinə görə, Qusar rayonu Hil kəndi Kərim Kərimov adına tam orta ümumtəhsil məktəbin 11-ci sinif şagirdi Qurbanova Günel Yafəs qızı 1-ci, Kəngərli rayonu Qıvraq qəsəbə tam orta məktəbin 11-ci sinif şagirdi Novruzov Suat Ziya oğlu 2-ci, İmişli şəhəri Aslan Eminov adına 7 nömrəli tam orta ümumtəhsil məktəbin 9-cu sinif şagirdi Alışov Əli Elməddin oğlu 3-cü, tələbələrdən isə Bakı Ali Neft Məktəbi, "Biznesin idarə edilməsi" ixtisası, 5-ci kurs tələbəsi Xəlilli Murad Çingiz oğlu 1-ci, 4-cü kurs tələbəsi Aslanov Arif Mirabbas oğlu isə 2-ci, Azərbaycan Dövlət Aqrar Universiteti, "Marketinq" ixtisası, 3-cü kurs tələbəsi Hacıyev Ülvi Qubad oğlu 3-cü yeri tutub.

Statistik olimpiadanın final mərhələsinə keçmiş tələbə və şagirdlərə sertifikat və hədiyyələr, olimpiadanın qaliblərinə isə diplom və hədiyyələr təqdim olunub.

Daha sonra Prezident İlham Əliyevin 21 iyun 2025-ci il tarixli Sərəncamı ilə təltif edilmiş Komitə əməkdaşlarına orden və medallar təqdim olunub. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildiriblər.

# "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" yeni mərhələyə daxil olur

Avropanı enerji və rəqəmsal kommunikasiya baxımından Qara dənizin hər iki sahilindən, eləcə də Xəzər dənizi regionu ilə birləşdirəcək qlobal layihənin - "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırmasının 2026-cı ilin əvvəlində yekunlaşması gözlənilir. Bu nəhəng "yaşıl dəhliz"in tikintisinin 3-4 il ərzində tamamlanması gözlənilir. Layihənin maliyyələşdirilməsində əsas təchizatçılardan biri olan Avropa Komissiyası 2,3 milyard avro ayırmağı planlaşdırır, digər səhmdarların da maliyyəsini nəzərə alsaq "Qara dəniz kabel"inə 4 milyard dollardan çox investisiya yatırılacağı istisna olunmur.

Bu nəhəng "yaşıl enerji" habı böyük bir coğrafi ərazini əhatə etməklə Avropanın bir neçə ölkəsinin bərpaolunan enerji ilə təminatında mühüm rol oynaycaq. Bu baxımdan layihəyə maraq daha da güclənir. Energetika naziri Pərviz Şahbazov bildirib ki, layihə qlobal təchizatçıların xüsusi diqqət mərkəzindədir və "yaşıl enerji"dən faydalanmaq istəyən ölkələrin sayı artır. Bu səbəbdən dəhlizin çəkilişi üzrə yaradılmış "GECO Green Energy Company" Birgə Müəssisəsi tərəfindən layihənin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) 10 illik inkişaf planına (TYNDP) daxil edilməsi üçün müraciət olunub. Növbəti mərhələdə layihəyə PCI/PMI (Qarşılıqlı və Ortaq Maraqlı Layihələr) statusunun əldə edilməsi üçün müraciət ediləcək.

Beləliklə, 2032-ci ildən etibarən mərhələli şəkildə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" vasitəsilə planlaşdırılan 6 QVt-dan çox gücün 4 QVt-nın ixracına başlanması planlaşdırılır.

**Asiya-Avropa qitələrinin enerji həmrəyliyi**

Qeyd edək ki, 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji əməkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və "yaşıl enerji"nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin icrasını təmin etmək üçün Rumıniyanın "Transelectrica", Azərbaycanın "Azərenerji" ASC, Gürcüstanın "Elektrik Şəbəkəsi" və Macarıstanın








"MVM" şirkəti arasında da saziş imzalanıb.

"Yaşıl enerji" həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan edib. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.

**Qarabağ Bəyannaməsinin bəndlərindən biri...**

Xəzər-Qara dəniz kabelində əsas enerji təchizatçıları türk dövlətləri olacaq. Layihədə əsas resurs mənbəyi kimi Mərkəzi Asiya və Xəzər regionu nəzərdə tutulur. Bu konteksdə Azərbaycan-Qazaxıstan-Özbəkistan alyansının "yaşıl enerji" üzrə vahid siyasəti Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir. Sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpaolunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə dəstəyini ifadə edib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.

**Ərəb dövlətləri də türk "yaşıl enerji ittifaqı"na qoşulur**

Yeri gəlmişkən, ərəb dövlətləri də "yaşıl enerji"nin türk koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda "yaşıl layihələr"də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması da bunu deməyə əsas verir.

Beləliklə, böyük karbohidrogen tədarükçüləri olan 3 türk dövləti və onların müttəfiqinə çevrilmiş Səudiyyə Ərəbistanı növbəti onilliklər ərzində qlobal neft istehlakının azalmasını fonunda ənənəvi enerjini kompensasiya edə biləcək "yaşıl enerji" potensialını qlobal bazarlara çıxaracaq. Bununla da, neft-qaz ölkələri kimi tanınmış bu dövlətlərin növbəti mərhələdə əsas vizyonu "yaşıl enerji"nin ixracatçıları kimi formalaşacaq.

**Cənub Qaz Dəhlizinin "yaşıl tranziti"..**

Azərbaycan "Qara dəniz kabeli"ni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəlilədir. Məsələn, 2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 11-ci və Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclaslarında "yaşıl enerji" sahəsində vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Beləliklə, Azərbaycanın 2 il əvvəl əsasını qoyduğu "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə qoşulan ölkələrin sırasını genişlənməsi rəsmi Bakının həmişə olduğu kimi enerji təşəbbüskarlığına beynəlxalq dəstəyi artırır.

***E.CƏFƏRLİ***

# Azərbaycan Asiya Parlament Assambleyasına uğurla sədrlik edir




*Nardar BAYRAMLI*

Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində fəal siyasət həyata keçirir. Belə təşkilatlardan biri də Asiya Parlament Assambleyasıdır (APA). Asiya Parlament Assambleyası Asiya ölkələrinin qanunverici orqanlarını birləşdirən və regional əməkdaşlığı gücləndirməyi hədəfləyən parlament təşkilatıdır. Azərbaycanın bu qurumda aktiv iştirak etməsi ölkənin beynəlxalq parlament diplomatiyasına verdiyi töhfənin göstəricisidir.

Yeri gəlmişkən, Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında iştirak etmək məqsədilə İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfər edən Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının Koordinasiya görüşünə sədrlik edib.

**Gələn il təşkilatın 20 illiyi qeyd olunacaq**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda çıxışı zamanı spiker Sahibə Qafarova bu görüşlərin qarşılıqlı maraq doğuran əsas beynəlxalq məsələlər üzrə əməkdaşlığın və koordinasiyanın genişləndirilməsində mühüm rolunu vurğulayıb. Onun sözlərinə görə, əlaqələndirici görüşlər, xüsusilə belə həssas vaxtlarda vacib əhəmiyyət kəsb edən mühüm beynəlxalq məsələlərin müzakirəsi və fikir mübadiləsinin aparılmasında APA-nın əhəmiyyətli potensialından tam istifadə etmək üçün əla imkan yaradır. Gələn il Asiya Parlament Assambleyasının yaradılmasının 20-ci ildönümünün qeyd olunacağını söyləyən Milli Məclisin sədri ötən dövrdə assambleyanın artıq mühüm parlamentlərarası əməkdaşlıq, konstruktiv dialoq və həmrəylik platformasına çevrildiyini bildirib. Onun sözlərinə görə, bu qurum üzv ölkələrin parlamentlərini öz çətiri altında birləşdirir, onların səsini eşitdirir və ölkələrimizin ümumi məqsədlərə nail olmaq səylərinə parlament töhfəsini verir.

Azərbaycanın təşkilata sədrlik etməyə başladığı 2024-cü ildən bəri görülən işlər haqqında məlumat verən Sahibə Qafarova vurğulayıb ki, bu müddət ərzində assambleya çərçivəsində əməkdaşlıq və dialoqun genişləndirilməsi istiqamətində səylər göstərilib. Azərbaycan birgə işin daha da gücləndirilməsi - APA-nın institusional potensialının inkişafı, sıralarının genişləndirilməsi, mövcud orqanların səmərəliliyinin artırılması ilə bağlı bir sıra prioritetlər irəli sürüb. Sözügedən dövrdə təşkilatın sıraları genişlənib. Belə ki, Oman Sultanlığının Şura Məclisi APA-nın tamhüquqlu üzvü olub, Belarus Respublikası Milli Assambleyasının Respublika Şurası müşahidəçi statusu qazanıb, APA-da müşahidəçi statusu olan beynəlxalq təşkilatların da sayı artırılıb, Ərəb Parlamentləri Baş Katibləri Assosiasiyasına müşahidəçi statusu verilib. Qeyd olunub ki, Azərbaycanın sədrliyi dövründə APA büdcəsinin formalaşdırılması qərarı ilə bağlı konsensus əldə olunub ki, bu da assambleyanın imkanlarının daha da gücləndirilməsi və artırılması üçün çox vacibdir.

**Sədrlik Bəhreyn Krallığına keçir**

Milli Məclisin sədri çıxışında, həmçinin deyib ki, dünyamızın üzləşdiyi problemlərin miqyası kollektiv tədbirlər və birgə səylər olmadan onların öhdəsindən gəlməyin qeyri-mümkün olduğunu göstərir. Qəzzada atəşkəslə bağlı əldə olunan razılaşma bunu bir daha nümayiş etdirdi. O, ümidvar olduğunu bildirib ki, sazişin bütün mərhələləri layiqincə yerinə yetiriləcək və Yaxın Şərq Sülh Sammitinin nəticələri regiona ədalətli və davamlı sülh gətirəcək.

Spiker Sahibə Qafarova xatırladıb ki, gələn il Bəhreyn Krallığı APA-ya sədrlik edəcək. O, inamını ifadə edib ki, Bəhreynin rəhbərliyi altında assambleya bütün Asiyada parlamentlərarası əməkdaşlığı gücləndirməyə davam edəcək və ümumi məqsədlərə uyğun olaraq qitəmizdə sülhün, həmrəyliyin və davamlı inkişafın təşviqinə töhfə verəcək.

Sonra iclas gündəlikdə duran məsələlərin müzakirəsi ilə davam edib.

Xatırladaq ki, hələ 2023-cü ilin sentyabrında ölkəmiz bu qurumun sədrliyinə namizədliyini irəli sürmüşdü. Həmin ilin noyabrında isə Türkiyənin Antalya şəhərində 20 dövlətin parlament nümayəndə heyətinin təmsil olunduğu Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclasında Azərbaycan APA-nın 2024-2025-ci illər üzrə sədri seçilib.




**Ölkəmiz APA-nın hansı tədbirlərinə ev sahibliyi edib?**

Ötən il 22-23 fevral tarixində Bakıda Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası keçirilmişdi. "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan sessiyada 40-dək ölkənin parlament nümayəndə heyəti, o cümlədən 10-a yaxın ölkənin spikeri, habelə bir sıra beynəlxalq parlament təşkilatlarının rəhbərləri və təmsilçiləri iştirak ediblər.

Bu il fevralın 18-dən 20-dək isə Bakıda Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının açılış mərasimi keçirilib. 35 nümayəndə heyətinin, o cümlədən, ümumilikdə 280 nəfərə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə bir sıra məsələlər müzakirə olunub. Bütün bunlar göstərir ki, APA Asiya parlamentlərini birləşdirən mühüm parlament diplomatiyası platforması olmaqla yanaşı, bu cür tədbirlər həm də üzv ölkələrin qanunverici orqanları arasında müzakirələrin və dialoqun inkişafına xidmət edir.

Qeyd edək ki, İsveçrəyə səfəri zamanı olan Milli Məclisin sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyası çərçivəsində təşkilatın Baş katibi Martin Çunqonq ilə də görüşüb.

Görüşdə Milli Məclis ilə PAİ arasında mövcud və gələcək əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər bundan əvvəlki görüşləri məmnunluqla xatırlayaraq, bu kimi təmasların təşkilat və ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfə verdiyini qeyd ediblər.

Söhbət zamanı bu kimi tədbirlərin mühüm beynəlxalq məsələlərin müzakirəsi baxımından vacib və əlverişli platforma olduğu qeyd edilib, PAİ-nin təşkilata üzv dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsindəki mühüm rolu vurğulanıb.

Görüşdə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti də təqdir olunaraq, Azərbaycan Milli Məclisinin sədrliyi ilə təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artması istiqamətində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilib.

# BMT-də Azərbaycan gündəliyi



Hazırda qlobal miqyasda meydana çıxan əsas çağırışlardan biri iqlim dəyişmələri ilə bağlıdır. Yeni qlobal çağırışlardan bütün ölkələr təsirlənir. Bu həm də o anlamda qəbul olunmalıdır ki, hər bir dövlət artan qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsinə öz töhfəsini verməlidir.

Bu sahədə respublikamızın nümunəsi diqqət çəkir. Yeri gəlmişkən, Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Şəhriyar Hacıyev bu günlərdə BMT Baş Assambleyasının 80-ci sessiyasının üçüncü komitəsinin “İnsan hüquqlarının təşviqi və müdafiəsi” mövzusunda keçirilən iclasında iqlim dəyişikliyi və ətraf mühit üzrə xüsusi məruzəçilərlə interaktiv dialoq zamanı ölkəmizin yaranan yeni çağırışlara həssas yanaşmasını diqqətə çatdırıb.

## İqlim dəyişmələrinin artan fəsadları

Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Şəhriyar Hacıyev müzakirələrdə vurğulayıb ki, iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyasından yaranan çağırışlar artmaqdadır və dünya üzrə milyardlarla insana, onların hüquqlarına mənfi təsir göstərir. Həqiqətən də, bəhs olunan kontekstdə dünyanın mənzərəsi çox kədərlidir. Təqdim olunan faktları həyəcansız izləmək mümkün deyil. Dünyadakı bir neçə onillik bundan əvvəlki vəziyyətlə bugünkü mənzərənin müqayisəsi olduqca məyusedicidir. Verilən məlumatlarda bildirilir ki, əgər bir vaxtlar qlobal səviyyədə əhali artımına, insanların həyat tərzinə, sosial vəziyyətinə daha çox dərəcədə müharibələr mənfi təsir göstərirdisə, indi burada iqlim dəyişikliyi önə çıxmaqdadır. Dünyanı təhdid edən iqlim dəyişikliyinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə çoxalır, sənaye istehsalına tələbat artır. Bütün bu kimi fəaliyyətlər atmosferə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir.

Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Dünya tarixində ən isti illəri məhz bizim dövrümüzdə izləyirik. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı əhəmiyyətli dərəcədə artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə qədər çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur. Bu gün iqlim dəyişikliyi insanları yoxsulluğa sövq edən və həyat tərzinin yaxşılaşmasına mane olan əsas problemlərdən biri qismində çıxış edir. XXI əsrin ikinci onilliyində (2010-2019) ekologiya ilə bağlı hadisələr hər il orta hesabla 23,1 milyon insanı öz daimi yaşayış yerindən köçmək məcburiyyəti ilə üz-üzə qoyub.

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl “Azərkosmos” qlobal iqlim dəyişmələrinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. “Azərkosmos”un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, son vaxtlarda bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. “Azərkosmos”un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtakörpü su anbarında isə 286 hektar olub. Təqdim olunan bu kimi faktlar həyəcan təbili çalmağa əsas verir.

## COP29-un uğurlu nəticələri

BMT səviyyəsində aparılan müzakirələrdə Azərbaycanın iqlim dəyişmələri ilə bağlı gündəliyi diqqət mərkəzində olub. Azərbaycan iqlim dəyişmələri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən dövlətdir. Respublikamız 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Ölkəmiz Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb. Azərbaycandan Konvensiya üzrə hesabat öhdəliklərinin bir hissəsi kimi mütəmadi olaraq iqlim dəyişikliyi ilə bağlı əsas məsələlər və həll yollarını tərtib etməklə Milli Məlumat hazırlayır və müvafiq qaydada təqdim edir. Sözügedən hesabatların hazırlanmasında sahələr üzrə məlumatların toplanması və ümumiləşdirilməsi məqsədi ilə hər bir müvafiq sektoru təmsil edən dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılıb.




Məsuliyyətli dövlət olan Azərbaycan müvafiq istiqamətlərdə öz fəaliyyətlərini də qlobal çağırışlara adekvat qurur. Ölkəmiz neft istehsalı sahəsində sıfır emissiyasız fəaliyyəti hədəfləyib və bu sahədə qlobal tərəfdaşlığa öz töhfələrini verir. Azərbaycan Dövlət Neft Şirkəti 2008-ci ildən GGFR-in rəhbər komitəsinin üzvüdür. Respublikamızda həyata keçirilən layihələr nəticəsində il ərzində atmosferə atılan 1 milyard kubmetr qaz yığılaraq əhalinin istifadəsinə yönəldilib. SOCAR tərəfindən səmt qazının azaldılması tədbirləri Dünya Bankının Ekspert Şurası tərəfindən bir neçə dəfə ali mükafata layiq görülüb. Hazırda neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur.

Azərbaycanın COP29-un keçiriləcəyi məkan kimi müəyyənləşdirilməsi ölkəmizin bu kimi reallıqlarının BMT səviyyəsində yüksək dəyərləndirildiyinin əyani təsdiqi idi. Respublikamız dünyanın etimadını doğruldaraq beynəlxalq iqlim konfransına yüksək hazırlıqlar gördü və tədbirdə substantiv nəticələr əldə olundu. Bu sırada Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasını, 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsini, iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılmasını, Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsinin yaradılmasını, 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramının qəbul edilməsini xüsusi vurğulaya bilərik.

Beləliklə, deyə bilərik ki, Azərbaycan COP29-un təcrübəsi ilə gələcək iqlim konfransları üçün nümunəvi presedent yaradıb. BMT-də aparılan müzakirələrdə Birinci katib Azərbaycanın sədrliyi ilə COP29-da qəbul edilmiş Bakı Maliyyə Məqsədinin 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün ildə ən azı 300 milyard ABŞ dolları səfərbər etməyi hədəflədiyini diqqətə çatdıraraq vurğulayıb: “Beynəlxalq ictimaiyyətin səmərəli fəaliyyəti iqlim dəyişikliyi nəticəsində yaranmış köçkünlük, yoxsulluq, qida çatışmazlığı və aclıq, su qıtlığı kimi insan hüquqları çağırışlarını həll etmək üçün zəruridir”.

Azərbaycanın 2024-cü ildə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə IV könüllü milli hesabatını təqdim etdiyini nəzərə çatdıran Ş.Hacıyev sözügedən tədbirlərin əhalinin rifah halını təmin etməyə yönəldiyini bildirib.

*Mübariz FEYİZLİ*

# 3-cü uğursuz görüş...

## Tramp Zelenskiyə “yox” dedi - “Tomahavk” raketləri verilmədi

**Budapeşt - sülh danışıqları üçün yeni ünvan**

Dördüncü ilinin bitməsinə bir neçə ay qalan Rusiya - Ukrayna müharibəsi ilə bağlı yeni nüanslar ortaya çıxıb. CNN-nin yaydığı xəbərə görə, Vaşinqton ilə Kiyev arasında münaqişənin gələcəyi ilə bağlı yenidən fikir ayrılığı yaşanır. Belə ki, oktyabrın 17-də iki ölkə liderinin 2025-ci il ərzində Ağ Evdə baş tutan üçüncü görüşü də gözlənilən nəticəni vəd etməyib - Tramp və Zelenski münaqişənin gələcəyi ilə bağlı fikir ayrılığına düşüblər. Mənbələrin bildirdiyinə görə, ABŞ prezidenti Ukrayna münaqişəni gərginləşdirməyə və uzatmağa çalışdığını ehtimal edir. Məhz bu səbəbdən Ukraynanın uzaqmənzilli raketlərlə təmin etməkdən imtina olunub. Görüşdə Trampın Zelenskiyə Kiyevin hələlik uzaqmənzilli raketlər verilməyəcəyinə dair fikir bildirdiyi istisna edilmir. “Axios”un mənbələrə istinadən verdiyi məlumata görə, Ukrayna lideri “Tomahavk” raketlərini istəsə də, Tramp bundan imtina edib. Görüşdən sonra Tramp Truth Social-da bu barədə yazıb. ABŞ prezidenti bildirib ki, Rusiya və Ukrayna olduqları yerdə dayanmalı və razılıq əldə etməlidirlər.



**ABŞ-dan imtina - özünün silahlanmasına üstünlük verir**

Bu arada ABŞ-ın vitse-prezidenti C.D.Vens Amerikanın “Tomahavk” raketlərinin Ukraynaya mümkün çatdırılmasını şərh edərkən bildirib ki, Birləşmiş Ştatlar öz Silahlı Qüvvələrinin silahlanmasına üstünlük verməlidir. O, jurnalistlərin “Tomahavkları”n Ukraynaya verilməməsi ilə bağlı suallarını cavablandırarkən deyib ki, “Birləşmiş Ştatlar ilk növbədə Amerikanın təhlükəsizliyini təmin etməyə çalışır”. Siyasətçi əlavə edib ki, ABŞ kritik silah sistemlərinin ehtiyatını qorumalıdır.

**Budapeşt görüşünün vaxtı müəyyənləşdi...**

Zelenski ilə görüşü ərəfəsində Tramp rusiyalı həmkarı Vladimir Putinlə telefonla danışıb. Onlar yaxın vaxtlarda Budapeştdə şəxsən görüşmək barədə razılığa gəliblər. Amerika liderinin sözlərinə görə, Macarıstandakı danışıqlar Zelenskisiz baş tutacaq. Bununla belə, Tramp bildirib ki, Ukrayna prezidenti onlarla təmasda olacaq. Məlumata görə, Vladimir Putin və Donald Trampın görüşü oktyabrın 30-u və ya 31-nə planlaşdırılır. “Əvvəlcə Rusiya xarici işlər naziri Sergey Lavrov və ABŞ Dövlət katibi Marko Rubio səviyyəsində bütün detallar müzakirə ediləcək, daha sonra tarix rəsmi şəkildə elan olunacaq. Amma əsasən 30-31 oktyabr tarixlərinə fokuslanırıq”, - mənbə qeyd edib. Görüşdən bölgədəki münaqişələrin həlli, təhlükəsizlik məsələləri və ABŞ-Rusiya münasibətlərində yeni mərhələnin müzakirə olunacağı gözlənilir.

**Trampın təhlükəsizlik zəmanəti...**

ABŞ-ın Ukraynanın raket tələbinə neqativ cavabı isə Qərb siyasi dairələri və mətbuatı tərəfindən birmənalı qarşılanmayıb. “The Times” qəzeti bununla bağlı ABŞ prezidentinin Putinlə son danışıqlardan sonra Rusiya ilə bağlı əvvəlki yumşaq mövqeyinə qayıtdıbını yazıb. Nəşrin məlumatına əsasən, AĞ Evdə keçirilən bu ilin üçüncü görüşündə Kiyev heç bir konkret dəstək əldə etməyib. Məqalədə qeyd olunur ki, ilkin görüşlərdə Tramp və Zelenski arasında anlaşma çatışmazlığı artıq hiss olunurdu. Bir çox siyasi analitiklər idida edirlər ki, ABŞ Rusiya ilə münasibətləri “yenidən balanslaşdırmaq” siyasətinə dönməyə niyyətlənib və bu da Ukraynaya hərbi dəstəyin azalmasında təzahürünü tapır.

“Reuters” isə yazır ki, Tramp Ukrayna və Rusiya arasında sülh prosesini təşviq etmək məqsədilə hər iki ölkəyə təhlükəsizlik zəmanətləri təklif edib. Mənbənin bildirdiyinə görə, Tramp bu addımı Ukrayna müharibəsinin uzanmasının qarşısını almaq və gərginliyi diplomatik yolla azaltmaq üçün atmaq niyyətindədir.

**Tramp fikrində qalır - hər iki tərəf dayansın...**

Vurğulayaq ki, bir müddət öncə Alyaskada keçirilən görüşdən sonra münaqişənin dayandırılması ilə bağlı bir formul müzakirə predmeti olmuşdu - ABŞ Prizdenti təklif etmişdi ki, ilkin mərhələdə hər iki dövlət hazırki təmas xəttində dayansın və atəşkəs elan edilsin. Amma həmin vaxt bu fikrə heç bir tərəf razı olmamışdı. Tramp bu dəfə də eyni təklifi qüvvədə saxlayıb - o, jurnalistələrə açıqlamasında bildirib ki, Rusiya və Ukrayna qüvvələri hərbi əməliyyatları dayandırmalı və hazırkı təmas xəttində qalmalıdır. “Biz hesab edirik ki, onlar sadəcə təmas xəttində dayanmalıdırlar. Hazırda təmas xətləri var. Başqa bir şeylə razılaşmaq çox çətindir. O qədər müxtəlif dəyişikliklər var ki. Ona görə də deyirəm ki, onlar sadəcə olaraq, təmas xəttində dayanmalıdırlar”, - deyən ABŞ prezidenti əlavə edib ki, Zelenski ilə son görüşündə Donbasa nəzarətin Rusiyaya verilməsi ilə bağlı məsələləri müzakirə etməyib: “İndiki kimi bölünsün. Məncə, ərazinin 78 faizi artıq Rusiya tərəfindən alınıb. Qoy olduğu kimi qalsın. Onlar nəyisə sonra razılaşdıra bilərlər”. Vurğulayaq ki, Tramp bir müddət öncə “Fox News” telekanalına müsahibəsində bəyan etmişdi ki, Ukraynada münaqişəyə son qoyulması Kiyev üçün ərazi itkisi demək olacaq.



**Tədarük azalıb - Avropa “pul” çatdıra bilmir...**

“Tomahavk” raketlərinin Ukraynaya verilməməsi isə Kiyevin müharibədə əlini zəiflədir - qeyd edək ki, ABŞ-ın bu gözlənilməz qərarı ümumən Avropa kontingentini “silkələyib”. Onsuz da son zamanlarda Ukraynanın təchizat məsələsində yaranan fasilələr vəziyyəti gərginləşdirmişdi. Verilən məlumatalara görə, Ukraynaya Qərbdən gələn hərbi və maliyyə dəstəyi sürətlə azalır. Avropa isə bu çatışmazlığı kompensasiya etməkdə çətinlik çəkir. “Neue Zürcher Zeitung” yazır ki, ilin əvvəlindən Qərb ölkələrinin Kiyevə hərbi yardımı xeyli azalıb. Əvvəllər Ukraynanın əsas silah donoru olan ABŞ, Donald Trampın prezident andiçməsindən sonra yeni hərbi tədarükləri dayandırıb. Avropa Birliyi isə bu boşluğu qismən doldurmağa çalışsa da, texnoloji və istehsal imkanlarının məhdudluğu səbəbindən artilleriya sursatı, raket sistemləri və hava hücumundan müdafiə sahəsində çatışmazlıq yaranıb. Nəşr bildirir ki, yay aylarında Avropanın Ukraynaya maliyyə öhdəlikləri 57 faiz azalıb - ayda 3,8 milyard avrodan 1,9 milyard avroya düşüb. Ümumilikdə, donor ölkələrin yardımı ilin əvvəlki dövrü ilə müqayisədə təxminən 40 faiz azalıb. “Purl Təşəbbüsü” çərçivəsində Danimarka, Norveç, İsveç, Almaniya, Niderland və Kanada kimi ölkələr ABŞ-dan Ukrayna üçün silah alır. Bu layihənin ümumi həcmi 1,9 milyard avrodur. Danimarka bütün artilleriya ehtiyatını Ukraynaya göndərib, Fransa və İtaliya kimi Cənubi Avropa ölkələri isə daha böyük istehsal potensialına malik olduqları üçün təzyiqlərə daha davamlı hesab olunur. Hazırda Ukraynaya ayrılan ümumi yardım 215 milyard avro civarındadır. Bu, Avropa İttifaqının pandemiya və avro böhranı zamanı ayırdığı vəsaitlərlə müqayisədə qat-qat azdır.

*P.İSMAYILOV*

# İqtisadi inkişafın sütunları

*Yeganə*

## Bölgələrdə istehsalın yüksəlməsi tərəqqiyə töhfə verir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Bu gün Azərbaycanın hər bir bölgəsində yeni həyat nəfəsi duyulur. İllər öncə infrastruktur baxımından geridə qalmış rayon və kəndlər indi müasir yollarla, təzə tikililərlə, iş yerləri ilə tanınır. Bu dəyişikliklər təsadüfi deyil, ölkəmizdə həyata keçirilən ardıcıl və məqsədyönlü regional inkişaf siyasətinin nəticəsidir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı gerçəkləşdirilən proqramların məqsədi təkcə iqtisadi artımı təmin etmək deyil, həm də paytaxtla bölgələr arasında tarazlığı, bərabər imkanları yaratmaqdır. Bu siyasətin nəticəsidir ki, bölgələrdə yeni sənaye müəssisələri, aqroparklar, emal zavodları və turizm infrastrukturu regionlarda minlərlə insan üçün iş yeri yaradıb.

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2024-cü illər ərzində 1,7 milyonu daimi olmaqla, 2,2 milyondan artıq yeni iş yeri yaradılıb ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşür.

**İnsan amili inkişafın mərkəzində...**

Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə regionlarda sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli işlər görülüb. Sumqayıt Kimya Sənaye Parkı və Mingəçevir Sənaye Parkı, həmçinin Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələri yaradılmışdır ki, bu da regionlarda sənaye sahəsində fəaliyyət göstərən sahibkarların, o cümlədən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyətə malikdir.



Dövlət Proqramları çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də əsas prioritet istiqamətlərdəndir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına aqrar sahədə keyfiyyətli məhsul istehsalını yüksəldib.

Regional inkişaf həm də insanların həyat keyfiyyətində öz əksini tapır. Müasir məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, idman kompleksləri regionlarda sosial həyatın səviyyəsini xeyli yüksəldib. Bir vaxtlar paytaxtdan uzaq, diqqətdən kənarda qalan kəndlərdə indi gənclər öz işini qurur, fermerlər bazarlara məhsul çıxarır, qadınlar yerli icmalarda sosial layihələrdə iştirak edir. Bu, cəmiyyətin özünəinamını və təşəbbüskarlığını artıran mühüm faktordur.

**Regionlarımızda yeni mərhələ başlayıb**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramovun sözlərinə görə, artıq son statistika göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 50 mindən artıq vətəndaş çalışır: "Bu isə regionların inkişafında yeni mərhələnin başlandığını göstərir. İşğaldan azad olunmuş ərazilərimiz həm iş yerlərinin yaradılması, həm də iqtisadi fəaliyyətlərin genişləndirilməsi baxımından mühüm rol oynayır. Lakin təkcə Qarabağ və Şərqi Zəngəzur deyil, digər iqtisadi rayonların da potensialından səmərəli istifadə olunmalı və bu bölgələrə də sərmayələr cəlb edilməlidir. Regionların inkişafı və paytaxtla bölgələr arasında tarazlığın qorunması ölkənin uzunmüddətli iqtisadi strategiyasında əsas prioritetlərdən biri kimi qiymətləndirilir".

**Xarici ölkələrin təcrübəsi**

Deputat deyib ki, bəzi ölkələrdə regionların inkişafı ilə bağlı fərqli yanaşmalar var: "Məsələn, İtaliyada regionların inkişaf etdirilməsi üçün ayrıca güzəştlərin, aşağı dərəcəli vergilərin tətbiqi həyata keçirilir. Burada məqsəd bölgələrə daha çox sərmayənin cəlb edilməsidir, çünki İtaliyanın cənubu və şimalı arasında iqtisadi baxımdan fərq müşahidə olunurdu. Aparılan islahatlarla bölgələrlə iri şəhərlər arasında fərqi aradan qaldırmaq mümkün oldu. Ona görə də İtaliya təcrübəsi də bu kontekstdə Azərbaycan üçün faydalıdır".

**Azad ərazilərin iqtisadiyyata reinteqrasiyası təmin olunur**

V.Bayramov bildirib ki, işğaldan azad olunmuş ərazilərimizin inkişafı və o cümlədən həm iqtisadiyyatın formalaşması, həm də reinteqrasiyası əsas prioritetlərindəndir: "Cənab Prezidentin də əsas tapşırıqlarından biri Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın formalaşmasında özəl sektorun yaxından iştirakı və dəstəklənməsi ilə bağlıdır. Nəzərə alsaq ki, Qarabağ və Şərqi Zəngəzur üçün 10 illik güzəşt paketi var və sərmayənin cəlb edilməsi ilə bağlı işlər görülür. Ona görə də azad olunmuş ərazilərimizin Azərbaycan iqtisadiyyatının 8 faizini formalaşdırmaq imkanları var. Bu, iqtisadiyyatımız üçün əlavə 10 milyard manata yaxın yeni dəyər deməkdir. Ona görə də bu dəyərin formalaşdırılmasında özəl sektorun daha yaxından iştirakı olduqca vacibdir. Bu da ölkə iqtisadiyyatına reinteqrasiyaya imkan verəcək, ölkə iqtisadiyyatının inkişafı üçün vacibdir".

# ŞKTC-nin 6-cı prezidenti seçilib



## Seçkilərdə Tufan Erhürman qalib gəlib

Oktyabrın 19-da Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) növbəti, 6-cı prezident seçikləri keçirilib. Səsvermə günü 218 min 313 səsvermə hüququna malik olan şəxsin öz iradəsini ifadə etməsi üçün 777 seçki məntəqəsi fəaliyyət göstərib.

Seçkidə yeddi namizəd olsa da, əsas yarış iki nəfər arasında baş tutub - sağ partiyaların namizədi və Kipr məsələsinin iki dövlətli həllini müdafiə edən Ersin Tatar ilə solçu partiyaların ortaq namizədi, Kipr ilə federasiya tərəfdarı kimi çıxış edən Tufan Erhürman arasında marafon son ana qədər irəliləyib. Digər beş müstəqil namizəd isə 2 faizdən az səs toplayıb və seçkinin nəticələrinə təsir etməyib. Nəhayət səsvermə nəticəsində Cümhuriyyət Türk Partiyasının (CTP) lideri Tufan Erhürman 62,8 faiz səs toplayaraq Şimali Kiprin altıncı prezidenti seçilib. Keçmiş Prezident Ersin Tatar isə 35,7 faiz səslə ikinci olub.

### Türkiyədən təbriklər...

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Şimali Kipr Türk Cümhuriyyətində keçirilən prezident seçkilərinin nəticələri ilə bağlı açıqlama verib. Prezident Ərdoğan açıqlamasında Ankaranın Kipr türklərinin suveren hüquq və maraqlarını qorumaqda davam edəcəyini söyləyib. "Türkiyə olaraq biz Şimali Kipr Türk Cümhuriyyətinin suveren hüquq və maraqlarını türkiyəli-kiprli qardaş və bacılarımızla birlikdə bütün mümkün platformalarda qorumaqda davam edəcəyik", - deyə qeyd edib. Türkiyə lideri, həmçinin Cümhuriyyətçi Türk Partiyasının sədri Tufan Erhürmanı təbrik edib. Ərdoğan onun rəhbərliyi altında Şimali Kiprdə sabitliyin və rifahın daha da möhkəmlənəcəyinə inandığını vurğulayıb.

Türkiyənin xarici işlər naziri Hakan Fidan isə ŞKTC seçkilərinin başlamasına təxminən 7 saat qalmış paylaşımla yadda qalıb - Fidan bildirib: "Seçkilərin ŞKTC-də dövlət ənənəsini və demokratiya mədəniyyətini bir daha nümayiş etdirəcəyinə əminik. Ana vətənimiz və qarantımız olan Türkiyə, Kipr Türk xalqının haqq davasını müdafiə etməyə davam edəcək".

Seçkilərin nəticələri bəlli olduqdan sonra XİN qalib tərəfi təbrik edib. "Qeyri-rəsmi nəticələrə görə seçkilərdə qalib gələn cənab Erhürmanı təbrik edirik. Ana vətəni və qarantı Türkiyə, tarixi, hüquqi və humanitar öhdəlikləri çərçivəsində və reallıqlara uyğun olaraq Kipr Türk xalqının sülh, firavanlıq və inkişafı üçün səylərə töhfə verməyə davam edəcək", -deyə açıqlamada bildirilib.

Bu arada, vitse-prezident Cevdet Yılmaz da "Vətən və qarant ölkə olaraq hər zaman ŞKTC və Kipr Türklərinin yanında olmağa davam edəcəyik", - deyib.

### Erhürman: Dövlət ənənəsi davam edəcək

Türkiyə mətbuatının məlumatına görə, Erhürman zəfər nitqində "Bu seçkidə uduzan yoxdur. Mən qərəzsiz olaraq bütün vətəndaşlarımızın prezidenti olacağam. Qardaşlığımız qalib gəldi və qırılmadı. Xarici siyasət təbii ki, Türkiyə ilə sıx məsləhətləşmələr əsasında aparılacaq, buna heç kim şübhə etməsin. 5 illik fəaliyyətim boyunca tərəfsiz olacağam" deyib. Erhürman Türkiyə prezidenti rəcəb Tayyib Ərdoğana seçki təbrikinə görə təşəkkür edib və "Türkiyə bizim üçün həyati əhəmiyyət kəsb edir" deyə bildirib.





Yeni Prezident Anadolu Agentliyinin (AA) müxbirinə seçki prosesi və onun nəticələrini şərh edib. Tufan Erhürman bildirib ki, indiyə qədər bütün prezidentlər Türkiyə Cümhuriyyəti ilə məsləhətləşmələrə üstünlük verib, danışıqlar proseslərini, görüşləri, ümumilikdə, xarici siyasəti bu yöndə irəlilədib: "Bu, bizim dövlət ənənəmizdir. Bu dövlət ənənəsi davam edəcək".

Türkiyə ilə əlaqələrə dair heç vaxt mənfi fikir söyləmədiyini vurğulayan Erhürman deyib ki, Türkiyə Cümhuriyyətinin rəsmiləri onu çox yaxşı tanıyır: "15 ay ŞKTC-nin baş naziri vəzifəsində çalışmışam, illərdir ana müxalifət partiyasına rəhbərlik edirəm. Türkiyə Cümhuriyyəti ilə əlaqələr bizim üçün son dərəcə əhəmiyyətli və həyati əhəmiyyət kəsb edir. Bunu mən həmişə hər yerdə demişəm və qeyd etdiyim kimi, Türkiyə Respublikası ilə məsləhətləşmədən Kiprdə xarici siyasətin və ya Kipr məsələsi ilə bağlı siyasətin müəyyənləşdirilməsi məsələsi heç vaxt olmayıb. Mənim prezidentliyim dövründə də bu ənənə dəyişməyəcək. Əminəm ki, Türkiyə Respublikası ilə çox yaxşı münasibətləri bundan sonra da davam etdirəcəyəm. Türkiyə Cümhuriyyətinə, türk xalqına ürəkdən sevgi və hörmətimi bildirirəm".

### Hüquqşünas, keçmiş baş nazir, yeni prezident...

Qeyd edək ki, ŞKTC-nin altıncı prezidenti kimi fəaliyyətə başlayacaq Tufan Erhürman 1970-ci ildə Lefkoşada anadan olub. İbtidai və orta təhsilini Türkiyənin Maarif Kollecində alan Erhürman 1988-ci ildə Ankara Universitetinin Hüquq fakültəsinə daxil olub. Həmin universitetdə dövlət hüququ üzrə magistr və doktorantura təhsilini tamamlayıb. O, "Ombudsman və hakimiyyətə qeyri-hüquqi nəzarət" mövzusunda doktorluq dissertasiyasını hazırlayıb.

İxtisasca hüquqşünas olan Tufan Erhürman təcrübəli siyasətçilərdən sayılır. Peşə fəaliyyətinə universitet müəllimi kimi başlayan Erhürman Türkiyə və ŞKTC-nin müxtəlif universitetlərində dərs deyib. O, Türkiyənin Ədliyyə Nazirliyində ombudsman təsisatının yaradılmasında iştirak edib. Hüquq və dövlət idarəçiliyi üzrə doktorluq işi onun daha sonra siyasətdə tətbiq edəcəyi "qanun əsaslı" yanaşmanın əsasını qoyub.

Uzun illər dövlət idarəçiliyi və hüquqi islahatlar sahəsində çalışan Erhürman 2013-cü ildə parlamentə deputat seçilib və Cümhuriyyət Türkiyə Partiyasından Lefkoşa millət vəkili olaraq parlamentə daxil olub. 2016-cı il noyabrın 13-dən isə təmsil olunduğu partiyaya rəhbərlik edib - o, Mehmet Ali Tələtin ardından CTP sədri kimi fəaliyyət göstərib.

2018-2019-cu illərdə isə Şimali Kipr Türk Respublikasının Baş naziri vəzifəsini icra edib. 2018-ci il yanvarın 7-də keçirilən seçkilərdən sonra qurulan dörd partiyalı koalisiya hökumətinin baş naziri olub. Erhürman 2018-ci il fevralın 2-də vəzifəsinin icrasına başlayıb və 22 may 2019-cu il tarixinədək bu vəzifəni icra edib. İşlədiyi müddətdə ictimai islahatlar, şəffaf idarəçilik, iqtisadi sabitlik və yerli hökumətlərin gücləndirilməsi siyasətini ön planda saxlayıb. Onun hökuməti 15 ay davam edib, lakin koalisiyanın dağılmasından sonra Erhürman müxalifət lideri kimi yenidən siyasi fəaliyyətə başlayıb.

*SADİQ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Azadlıq şairi

## Xəlil Rza Ulutürkün anadan olmasından 93 il ötür

*Yeganə BAYRAMOVA*

*Odur, yanır dan yeri...*
*Addımla günəşlə tən.*
*Torpaqdan başlanmır, yox,*
*Kişi qanındakı qeyrət selindən,*
*Səndən başlanır Vətən.*
*Məndən başlanır Vətən!*

Şairin bu misralarından sonra səsinə minlərlə, milyonlarla Vətən sevdalısı səs verdi. Həmin dövrdə mübariz çıxışlarına, meydanı azadlıq ruhu ilə dalğalandırdığına görə zindana atılsa da, sənədli-sübutlu memuar yazılarını işıq üzünə çıxardı, millətin istiqlalına yetişdi. Heç şübhəsiz, bu, hər inqilabçı şairə qismət olmayır. O, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgələrində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. O, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür.

**Böyük mücahidin həyatı...**

Bu gün ondan söz açmağımız təsadüfi deyil. Çünki bu gün Azərbaycanın görkəmli simalarından biri - şair, yazıçı, filosof, alim, xalq azadlığı uğrunda fədakar mübariz, böyük vətəndaş Xəlil Rzanın 93-cü ildönümüdür. O, 1932-ci il oktyabrın 21-də Salyanda anadan olub. 1949-1954-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb.1950-1960-cı ildə Azərbaycan Pedaqoji Universitetində baş müəllim kimi fəaliyyət göstərib.1959-cu ildə Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsilini davam etdirib.

**Təqiblərə görə universitetdən uzaqlaşdırıldı...**

Xəlil Rza Ulutürk 1984-cü ildə “Ömürdən uzun gecələr”,”Qardaşlıq çələngi” kitablarını yazıb. İctimai görüşlərinə görə təqiblərə məruz qalan şairi Azərbaycan Pedaqoji Universitetindən uzaqlaşdırırlar. Sonralar onu, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna dəvət edirlər. Burada o elmi-tədqiqat işi və bədii yaradıcılıqla məşğul olur, azadlıq mübarizəsini davam etdirir.

Vətəni üçün canından pay verən, vətənpərvər şair “Təbriz yenə doğular”, ancaq vətən əldən getməməlidir”- deyərək, odlu-alovlu çıxışları ilə həmişə düşmənə qarşı nifrətini bildirib. Təsadüfi deyil ki, ona istiqlalın alovlu şairi deyirdilər.

1990-cı il 20 Yanvar hadisələrinə, rus qoşunlarının günahsız insanları tankların altına salınmasına yenə öz çıxışları, şeirləri ilə kəskin bir dillə cavab verən Ulutürk zirvəsi saflıqla, ədalətlə qazanılan zirvədir. Bu zirvəyə çatmaq üçün Vətənini, xalqını Xəlil Rza Ulutürk kimi sevmək lazımdır. Əsərlərində Vətən sevgisi, düşmənə nifrət, xalqın azadlığı, bütün zəncirləri məhv edərək birgə olmaq arzusu ön planda olan şair hər misrasını ötəri hisslərlə deyil, ürəyindən, qəlbindən axıb gələn hisslərlə yazıb.

**Həyat yoldaşı Firəngiz xanımın dilindən:**

“Xəlil Rzaya 80-ci illərdə millətçi damğası vurmaq istəyirdilər. Xalqın azadlığını istədiyinə görə şair bir çox məhrumiyyətlərə məruz qalıb. Şair çıxış edərkən bir çoxları zalı tərk edir, onu “dəli” adlandırırdılar. Ancaq Ulu öndər Heydər Əliyev oni təqiblərdən daim qorumuş, “sən millətçi deyil, xalqın şairisən” deyirdi.Ulu öndər deyirdi ki, “mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı üçün, mənim ucun də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar ucun nümunə olacaqdır”.

... Vətənpərvərlik ruhunu oğluna da aşılayan istiqlaliyyət şairi Xəlil Rza vətən yolunda oğlunu və özünü fəda etdi. Şairin oğlu Təbriz Xəlilbəyli 1992-ci il Daşaltı əməliyyatında qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Təbriz Xəlilbəyli anadan olanda “Oğul həsrəti” şeirini yazan şair bəlkə də oğlunun vaxtsız gedəcəyini öncədən duymuşdu.

Xəlil Rza poeziyası gələcək nəsillər üçün bir xəzinədir. Onun mübarizliyi, mərdliyi hamının yaddaşında qalıb. Bu gün onun arzuları həyata keçib. Vətənin igid oğulları Qarabağımızı azad edib. Azərbaycan müstəqildir, azaddır. Ona görə də fəxrlə deyə bilərik ki, Xalqın mərd, mübariz oğlu, tarixdə iz qoyan sənətkar, türk dünyasının güneşi! Milli Qəhrəman atası! Ölməz şair Xəlil Rza Ulutürk...

# Azərbaycan Vaşinqtonda keçirilən Türk Festivalında təmsil olunub

ABŞ-nin paytaxtı Vaşinqtonun mərkəzində ənənəvi Türk Festivalı keçirilib.

Kapitol binasının yerləşdiyi məşhur Pensilvaniya prospektinin bir neçə küçəsi festival üçün bağlanıb. Festivalda Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan və digər türkdilli dövlətlər və xalqların çadırları quraşdırılıb. Çadırlarda əsasən Vaşinqton ətrafında yaşayan türkdilli xalqların təmsilçilərinin əl işləri, fəaliyyət sahələri, xalqlara məxsus incəsənət nümunələri, o cümlədən onlara məxsus milli təamları nümayiş olunub. Azərbaycan mətbəxinə məxsus lülə kabab yerli əhalinin və turistlərin xüsusilə böyük marağına səbəb olub və qarşısında uzun növbə yaranıb.

Virciniya ştatında fəaliyyət göstərən Azərbaycan Evi də festivalda təmsil olunub. Onlar müxtəlif növ Azərbaycan yeməklərini və milli mədəniyyət nümunələrini festival ziyarətçilərinə təqdim ediblər. Həmçinin, könüllülər Azərbaycanla bağlı maraqlı məlumatları qonaqlara çatdırıb və onlara Azərbaycan bayrağı paylayıblar.



Festivalda konsert proqramı təşkil olunub. Konsertdə müxtəlif türkdilli xalqlarla yanaşı, Azərbaycan icmasının istedadlı təmsilçilərinin musiqi nömrələri də yer alıb. Azərbaycanlı müğənni Günay Quliyeva, kamança ustası Toğrul Orucov və nağara ifaçısı Zaur Şahın ifasında müxtəlif xalq və bəstəkar musiqiləri səsləndirilib. “Güldər” rəqs qrupu milli rəqslərimizi ifa edib. Yerli sakinlər və icma nümayəndələri konserti coşqu ilə qarşılayıb və öz rəqsləri ilə musiqiçilərə qoşulublar.

*İdman*

## “Qarabağ”-”Atletik” oyununu xorvatiyalı hakim idarə edəcək



UEFA Çempionlar Liqasının əsas mərhələsində İspaniyada “Atletik”lə “Qarabağ” arasında keçiriləcək III tur oyununun hakimləri bəlli olub. Qarşılaşmanı Xorvatiyadan olan hakimlər briqadası idarə edəcək.

Matçın baş hakimi İqor Payaç olacaq. Ona yan xətt hakimləri Boyan Zabenitsa və İvan Mixal kömək edəcəklər. Dördüncü hakim funksiyasını Zdenko Lovriça yerinə yetirəcək. VAR hakimi İvan Bebek, onun köməkçisi isə isveçrəli Fedayi San olacaq.

Qeyd edək ki, oktyabrın 22-də “San Mames” stadionunda keçiriləcək qarşılaşma Bakı vaxtı ilə saat 20:45-də başlayacaq.

## Cüdoçularımız Qran-prini 9 medalla başa vurublar




Azərbaycan cüdoçuları Meksikanın Qvadalaxara şəhərində təşkil olunan Qran-prini 9 medalla başa vurublar. Onlardan altısı qızıl, üçü bürünc əyarlıdır. Balabəy Ağayev (60 kq), Ruslan Paşayev (66 kq), Hidayət Heydərov (73 kq), Vüsal Qələndərzadə (81 kq), Zelim Kotsoyev (81 kq) və Uşanqi Kokauri (+100 kq) qızıl medal qazanıblar. Əhməd Yusifov (60 kq), Rəşid Məmmədəliyev (73 kq) və Murad Fətiyev (90 kq) bürünc medalla kifayətləniblər.

Beləliklə, komandamız medal sıralamasında birinci yeri tutub.

## “Mançester Yunayted” səfərdə “Liverpul”u məğlub edib



İngiltərə Premyer Liqasında VIII turun mərkəzi oyunu keçirilib. Mövsümə uğursuz başlayan “Mançester Yunayted” səfərdə “Liverpul”un qonağı olub. “Enfild” stadionunda oynanılan qarşılaşma “qırmızı şeytanlar”ın 2:1 hesablı qələbəsi ilə başa çatıb. Mançester təmsilçisinin heyətində qolları Brayan Mbemo və Harri Maquayr vurublar. Mersisayd klubunda isə Kodi Qakpo fərqlənib.

Bu nəticədən sonra xallarını 13-ə çatdıran “Mançester Yunayted” 9-cu pilləyə yüksəlib. “Liverpul” isə 15 xalla üçüncüdür. Qeyd edək ki, turnir cədvəlinə 19 xalı olan “Arsenal” başçılıq edir. Liderdən 3 xal az toplayan “Mançester Siti” 2-ci sırada qərarlaşıb.

## Dünya çempionatında ölkəmiz təmsil edən taekvondoçular müəyyənləşib



Çinin Uşi şəhərində keçiriləcək böyüklər arasında dünya çempionatında iştirak edəcək Azərbaycan taekvondoçuları bəlli olub. Azərbaycan Taekvondo Federasiyasından bildirilib ki, ölkəmizi mundialda 9 idmançı təmsil edəcək.

Kişilərin yarışında Bəhruz Quluzadə (54 kiloqram), Qaşım Maqomedov (58 kiloqram), Fuad Təhməzov (63 kiloqram), Riyad Şirəliyev (68 kiloqram), Cavad Ağayev (74 kiloqram), Taleh Süleymanov (80 kiloqram) və Eltac Qafarov (87 kiloqram) güclərini yoxlayacaqlar.

Qadınların mübarizəsində isə Minayə Əkbərova (46 kiloqram) və Səmərrux Osmanova (49 kiloqram) dayanq üzərinə çıxacaqlar. Beynəlxalq dərəcəli hakim Aygül Abdullayeva isə yarışda ədalət təmsilçisi kimi fəaliyyət göstərəcək.

Mundial oktyabrın 24-30-da təşkil olunacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2174
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova